# 2020-ci il "Könüllülər ili" elan edildi

Prezident İlham Əliyev dekabrın 30-da "Azərbaycan Respublikasında 2020-ci ilin "Könüllülər ili" elan edilməsi haqqında" Sərəncam imzalayıb.

Sərəncama əsasən, gənclərin fərdi inkişafına təkan verən, onlarda sosial məsuliyyət hissini artırmaq, gəncliyin potensialından xalqın rifahı və ölkəmizin dayanıqlı inkişafı üçün səmərəli istifadə etmək məqsədilə 2020-ci il Azərbaycanda "Könüllülər ili" elan edilib.

Nazirlər Kabinetinə bununla bağlı tədbirlər planını bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etmək tapşırılıb.

Sərəncamda qeyd olunur ki, könüllülük insanları vahid niyyət ətrafında birləşdirən, vətəndaş, cəmiyyət və dövlətin birgə fəaliyyətinin ən uğurlu formatıdır. Könüllülük həm də vətənpərvərlik məktəbi, öz xalqına, dövlətinə, milli-mənəvi dəyərlərə bağlılıq və xidmət örnəyidir.

Bu fəaliyyətin təşviqi məqsədilə dövlətimiz tərəfindən zəruri addımlar atılıb, normativ hüquqi baza təkmilləşdirilib, dövlət dəstəyi mexanizmləri formalaşdırılıb. Könüllülük bir çox fəaliyyət sahələrinə nüfuz edərək ümummilli hərəkata çevrilib, ölkəmizin hər bir bölgəsinə, ictimai həyatın müxtəlif sahələrinə yayılaraq, cəmiyyətimizin bütün təbəqələrini əhatə edib, gənclərimizin həyat tərzinə çevrilib. ASAN, "Regional İnkişaf" İctimai Birliyi, "Bir" Tələbə könüllüləri və digər könüllü hərəkatları yaranıb, mərkəzi və yerli icra hakimiyyəti orqanlarında on minlərlə gənci birləşdirən könüllü qrupları formalaşıb.

Könüllülərimiz öz kreativliyi, təşəbbüskarlığı, innovativ düşüncə tərzi və müasir dünyagörüşləri ilə qoşulduqları fəaliyyətə yeni nəfəs verib, ölkəmizdə Avroviziya Mahnı Müsabiqəsi, I Avropa Oyunları, "Formula 1" yarışları, IV İslam Həmrəyliyi Oyunları kimi irimiqyaslı beynəlxalq tədbirlərin həyata keçirilməsində əvəzsiz rol oynayıblar.

Ötən il 5 dekabr - Beynəlxalq Könüllü Günü ərəfəsində Azərbaycanda ilk dəfə keçirilmiş və bütün könüllüləri əhatə etmiş Könüllülük Həftəsi ölkəmizdə könüllülüyün yeni mərhələyə qədəm qoyduğunu və böyük potensiala malik olduğunu nümayiş etdirib.

# 9 fevral 2020-ci il tarixdə Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin keçirilməsi ilə əlaqədar Qəbələ rayonunda kütləvi tədbirlər yolu ilə seçkiqabağı təşviqatın aparılması, eləcə də seçkiqabağı təşviqat materiallarının yerləşdirilməsi üçün yerlərin ayrılması haqqında Qəbələ Rayon İcra Hakimiyyəti başçısının SƏRƏNCAMI

Azərbaycan Respublikasının Seçki Məcəlləsinə, "Sərbəst toplaşmaq azadlığı haqqında" Qanununa, "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"nin 3.1.5-ci və 4.15.2-ci maddələrinə əsasən, "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"nin 6.8-ci maddəsini rəhbər tutaraq **qərara alıram.**

1. 9 fevral 2020-ci il tarixdə Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin keçirilməsi ilə əlaqədar Qəbələ rayonunda kütləvi tədbirlər yolu ilə seçkiqabağı təşviqatın aparılması üçün rayonun şəhər, qəsəbə və kəndlərində 29 qapalı, 29 açıq və seçkiqabağı təşviqat materiallarının yerləşdirilməsi üçün 78 yer ayrılsın (yerlərin siyahısı əlavə olunur).

2. Sərəncam "Qəbələ" qəzetində dərc olunsun.

3. Rayon icra hakimiyyətinin sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri Fuad Zəkəriyyəzadəyə tapşırılsın ki, sərəncamın surətinin aidiyyəti üzrə göndərilməsini təmin etsin.

4. Sərəncamın icrasına nəzarət rayon icra hakimiyyəti başçının birinci müavini Abil Ağasəfova həvalə edilsin.

**Səbuhi ABDULLAYEV,**
**Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı.**

*Qəbələ şəhəri,*
*10 yanvar 2020-ci il.*

## 9 fevral 2020-ci il tarixdə Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin keçirilməsi ilə əlaqədar Qəbələ rayonunda kütləvi tədbirlər yolu ilə seçkiqabağı təşviqatın aparılması üçün ayrılmış yerlərin Siyahısı

| Qapalı yerlər | | | Açıq yerlər | | |
|---|---|---|---|---|---|
| S/N | Ünvanı | Müəyyən edilmiş yer | S/N | Ünvanı | Müəyyən edilmiş yer |
| 1 | Qəbələ Mədəniyyət Mərkəzi | 400 | 1 | Qəbələ Olimpiya İdman Kompleksinin stadionu | 3500-4000 |
| 2 | Bum qəsəbə tam orta məktəbin akt zalı | 80 | 2 | Bum qəsəbəsindəki mərkəzi meydan | 1000 |
| 3 | Vəndam qəsəbə 1 saylı tam orta məktəbin akt zalı | 200 | 3 | Vəndam qəsəbə mədəniyyət evinin həyəti | 1100 |
| 4 | Nic qəsəbə 2 saylı tam orta məktəbin akt zalı | 200 | 4 | Nic qəsəbə mədəniyyət evinin həyəti | 1000 |
| 5 | Tikanlı kənd mədəniyyət evi | 110 | 5 | Tikanlı kənd mədəniyyət evinin həyəti | 800 |
| 6 | Mıxlıqovaq kənd klubu | 80 | 6 | Mıxlıqovaq kənd klubunun həyəti | 900 |
| 7 | Mirzəbəyli kənd tam orta məktəbin akt zalı | 55 | 7 | Mirzəbəyli kənddəki mərkəzi meydan | 500 |
| 8 | Çuxur Qəbələ kənd mədəniyyət evi | 120 | 8 | Çuxur Qəbələ kənd mədəniyyət evinin həyəti | 300 |
| 9 | Quşlar kənd klubu | 70 | 9 | Quşlar kənd klubunun həyəti | 600 |
| 10 | Hacıalılı kənd mədəniyyət evi | 100 | 10 | Hacıalılı kənd mədəniyyət evinin həyəti | 900 |
| 11 | Kürd kənd mədəniyyət evi | 80 | 11 | Kürd kənd mədəniyyət evinin həyəti | 800 |
| 12 | Bayramkoxalı kənd mədəniyyət evi | 80 | 12 | Bayramkoxalı kənd mədəniyyət evinin həyəti | 700 |
| 13 | Zalam kənd mədəniyyət evi | 50 | 13 | Zalam kənd mədəniyyət evinin həyəti | 600 |
| 14 | Məlikli kənd tam orta məktəbin akt zalı | 50 | 14 | Məlikli kənd tam orta məktəbin həyəti | 350 |
| 15 | Qəmərvan kənd mədəniyyət evi | 100 | 15 | Qəmərvan kənd mədəniyyət evinin həyəti | 750 |
| 16 | Böyük Pirəli kənd mədəniyyət evi | 50 | 16 | Böyük Pirəli kənd mədəniyyət evinin həyəti | 650 |
| 17 | Cığatelli kənd tam orta məktəbin akt zalı | 60 | 17 | Cığatelli kənd tam orta məktəbin həyəti | 550 |
| 18 | Tüntül kənd mədəniyyət evi | 140 | 18 | Tüntül kənd mədəniyyət evinin həyəti | 1100 |
| 19 | Yenikənd kənd tam orta məktəbin akt zalı | 60 | 19 | Yenikənd kənd tam orta məktəbin həyəti | 400 |
| 20 | Əmirvan kənd klubu | 40 | 20 | Əmirvan kənd klubunun həyəti | 500 |
| 21 | Zarağan kənd kənd tam orta məktəbin akt zalı | 140 | 21 | Zarağan kənd kənd tam orta məktəbin həyəti | 500 |
| 22 | Bunud kənd klubu | 40 | 22 | Bunud kənd klubunun həyəti | 600 |
| 23 | Laza kənd klubu | 30 | 23 | Laza kənd klubunun həyəti | 300 |
| 24 | Nohurqışlaq kənd kənd tam orta məktəbin akt zalı | 100 | 24 | Nohurqışlaq kənd stadionu | 700 |
| 25 | Soltannuxa kənd kənd tam orta məktəbin akt zalı | 40 | 25 | Soltannuxa kənd klubunun həyəti | 500 |
| 26 | Aydınqışlaq kənd kənd tam orta məktəbin akt zalı | 40 | 26 | Aydınqışlaq kəndinin mərkəzindəki meydan | 400 |
| 27 | Böyük Əmili kənd tam orta məktəbin akt zalı | 50 | 27 | Böyük Əmili kəndinin mərkəzindəki meydan | 350 |
| 28 | Yemişanlı kəndi tam orta məktəbin akt zalı | 100 | 28 | Yemişanlı kəndinin mərkəzindəki meydan | 250 |
| 29 | Yeni Dizaxlı kənd tam orta məktəbinin akt zalı | 80 | 29 | Yeni Dizaxlı kənd mədəniyyət evinin həyəti | 500 |